

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 29 (21.439)

*13 fevral 2016-cı il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

*Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 12-də Münxendə ABŞ müdafiə katibinin kəşfiyyat üzrə müavini Marsel Lettre ilə görüşüb.

Görüşdə Azərbaycan ilə ABŞ arasında ikitərəfli əməkdaşlıq əlaqələrinin uğurla inkişaf etdiyi bildirilib. Münasibətlərimizin bir sıra sahələrdə tərəfdaşlıq səviyyəsində olduğu vurğulanıb. Terrorizmlə mübarizə sahəsində əməkdaşlıq baxımından yaxşı perspektivlərin olduğu qeyd edilib.

Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

* * *

Almaniya Federativ Respublikasında işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 12-də Münxen Təhlükəsizlik Konfransı çərçivəsində “Neftin qiymətinin aşağı düşməsi geosiyasi məsələləri üzrə enerji təhlükəsizliyi” mövzusunda “dəyirmi masa”da iştirak edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 12-də Münxendə Almaniya İqtisadiyyatının Şərq Komitəsinin sədri Volfqanq Büxele ilə görüşüb.

* * *

Fevralın 12-də Münxendə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin “Kaspersky Lab” şirkətinin sahibi və icraçı direktoru Yevgeni Kasperski ilə görüşü olub.



## Naxçıvanda İran İslam İnqilabının 37-ci ildönümü qeyd olunmuşdur

Fevralın 11-də İran İslam Respublikasının Naxçıvandakı Baş Konsulluğu ölkəsinin milli bayramı – İslam İnqilabı Günü münasibətilə rəsmi qəbul təşkil etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov rəsmi qəbulda iştirak etmişdir.

Azərbaycan Respublikasının və İran İslam Respublikasının Dövlət himnləri səsləndirildikdən sonra “Qurani-Kərim”dən ayələr oxunmuşdur.

Tədbirdə İran İslam Respublikasının Naxçıvandakı Baş konsulu Mənsur Ayrom çıxış edərək demişdir ki, 1979-cu ildə yaranan İran İslam Respublikası ötən dövrdə uğurlu inkişaf yolu keçmiş, dünya ölkələri ilə səmərəli əməkdaşlıq qurulmuşdur. İran İslam Respublikası xarici siyasət kursunda Azərbaycanla və onun Naxçıvan Muxtar Respublikası ilə əlaqələrin inkişafına mühüm əhəmiyyət verir. Ötən dövrdə həyata keçirilən tədbirlər siyasi, iqtisadi və mədəni sahədə əlaqələrin inkişafında əhəmiyyətli rola malik olmuşdur.





Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov İran İslam Respublikasının yaranmasının 37-ci ildönümü münasibətilə dost və qardaş İran xalqını təbrik edərək demişdir: Ümummilli liderimiz Heydər Əliyevin əsasını qoyduğu Azərbaycan-İran əlaqələri bu gün dostluq, mehriban qonşuluq və qarşılıqlı əməkdaşlıq şəraitində davam və inkişaf etdirilir. Dövlətlərarası münasibətlər hər iki ölkə prezidentlərinin səyləri ilə daha da möhkəmləndirilir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi: ***“İranla Azərbaycan arasında olan münasibətlər çox sürətlə inkişaf edir. Siyasi, iqtisadi, humanitar və digər sahələrdə bizim aramızda əməkdaşlığın əməli nəticələri vardır. Bu əməkdaşlıq daha da güclənəcəkdir”.***

Qeyd olunmuşdur ki, ölkələrimiz arasındakı münasibətlərin tərkib hissəsi kimi Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə İranın Şərqi və Qərbi Azərbaycan vilayətləri arasında da səmərəli əməkdaşlıq vardır. Son illər həyata keçirilən qarşılıqlı rəsmi səfərlər və bu zaman imzalanan sənədlər əlaqələrin inkişafında yeni mərhələnin əsasını qoymuşdur. Hazırda energetika, kənd təsərrüfatı, iqtisadi-ticarət, təhsil, səhiyyə, mədəniyyət, turizm və idman sahələrində əlaqələr inkişaf etdirilir.

Ali Məclisin Sədri əlaqələrin inkişafında İran İslam Respublikasının Naxçıvandakı Baş Konsulluğunun xidmətlərini qeyd etmiş, Baş konsula və əməkdaşlarına təşəkkürünü bildirmiş, İran İslam Respublikasına inkişaf və tərəqqi arzulamışdır.

Sonra tədbir konsert proqramı ilə davam etmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan şəhərində Avtomobil və Ehtiyat Hissələrinin Satış Mərkəzi və yeraltı qaraj istifadəyə verilmişdir

Fevralın 12-də Naxçıvan şəhərinin Atabəylər məhəlləsində Avtomobil və Ehtiyat Hissələrinin Satış Mərkəzi və yeraltı qaraj istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov mərkəzin açılışını bildirən lenti kəsmişdir.

Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Səfərov tədbirdə çıxış edərək demişdir ki, bu gün Naxçıvan şəhərində müasir nəqliyyat infrastrukturunun yaradılmasına xüsusi diqqət yetirilir. Son illər şəhərdaxili yollar yenidən qurulmuş, avtomobillərin rahat və təhlükəsiz hərəkəti təmin edilmişdir. Bu gün istifadəyə verilən Avtomobil və Ehtiyat Hissələrinin Satış Mərkəzi də nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi və yeni xidmət sahələrinin yaradılması sahəsində görülən işlərin davamıdır. Yaradılan şərait sakinlər tərəfindən razılıqla qarşılanır.



Mərkəzdə fəaliyyət göstərəcək sahibkar Elvin Nağıyev demişdir ki, muxtar respublikada aparılan genişmiqyaslı quruculuq işlərinin təməlində insanların güzəranının yaxşılaşdırılması, qeyri-məşğul əhalinin işlə təminatı və onların sosial müdafiəsinin gücləndirilməsi dayanır. Sahibkarlığın inkişafına göstərilən qayğı sayəsində yeni sənaye müəssisələri açılır, xidmət sahələri yaradılır. Bütün bunlar insan amilinə verilən qiymətin daha bir ifadəsidir. Elvin Nağıyev sahibkarlar və burada işlə təmin olunanlar adından Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov muxtar respublika üçün mühüm əhəmiyyəti olan bir sahənin – Avtomobil və Ehtiyat Hissələrinin Satış Mərkəzinin istifadəyə verilməsi münasibətilə istifadəçiləri və yeni işlə təmin olunanları təbrik edərək demişdir: Avtomobil və Ehtiyat Hissələrinin Satış Mərkəzinin yaradılması ölkəmizin iqtisadi inkişafının qarşıya qoyduğu tələblərdəndir. Bu gün ölkəmiz inkişaf etdikcə, əhalinin maddi rifah halı da yaxşılaşır. Əhalinin rifahının yaxşılaşması insanların rahat yaşayışının təmin olunması ilə yanaşı, həm də onların müasir avtomobillər almasına imkan verir. Bu avtomobilləri keyfiyyətli ehtiyat hissələri ilə təmin etmək və texniki xidmət göstərmək isə vacib məsələdir.

Ali Məclisin Sədri demişdir: Avtomobil və Ehtiyat Hissələrinin Satış Mərkəzinin istifadəyə verilməsi imkan verəcəkdir ki, Naxçıvan şəhərində bu işlər pərakəndə formada

*Ardı 2-ci səhifədə*

deyil, mərkəzləşdirilmiş qaydada həyata keçirilsin. Yaradılan şərait avtomobil ehtiyat hissələrinin keyfiyyətinə dövlət nəzarətinin həyata keçirilməsinə, avtomobillərin alqı-satqısı zamanı dövlət qeydiyyatının vaxtında aparılmasına və onların istismara yararlılığının müəyyən olunmasına imkan verəcəkdir. Həmçinin burada muxtar respublikamızda istehsal olunan avtomobillərin ehtiyat hissələrinin satışı və avtomobillərin təmiri də həyata keçiriləcəkdir. Bir sözlə, bu ərazi muxtar respublikada avtomobillərə nümunəvi xidmət mərkəzinə çevriləcəkdir.



Ali Məclisin Sədri demişdir: Mərkəz Naxçıvan şəhərində istifadəyə yararsız ərazidə inşa olunmuşdur. Bu da şəhərin bu hissəsinin abadlaşmasına və eyni zamanda bu ərazidə yaşayan əhali üçün 304 yerlik yeraltı qarajın yaradılmasına da səbəb olmuşdur. Bu cür mərkəzlərin istifadəyə verilməsi həm də yeni iş yerlərinin açılması, yeni sahibkarlıq sahələrinin yaradılması deməkdir. Mərkəzdə 200-dən artıq yeni iş yeri yaradılmışdır. İş yerləri isə hər bir ailənin normal yaşayışı deməkdir. Bu gün Azərbaycan Respublikası Prezidentinin qarşıya qoyduğu vəzifə də ondan ibarətdir ki, ölkəmizdə işsiz vətəndaş olmasın. Ona görə də hər bir kəsin bacarığına və qabiliyyətinə görə iş yerləri yaradılmalıdır.





Ali Məclisin Sədri muxtar respublikada bütün sahələrin inkişafına bundan sonra da diqqət göstəriləcəyini və yeni iş yerlərinin açılacağını bildirmiş, mərkəzdə fəaliyyət göstərəcək sahibkarlara uğurlar arzulamış, yaradılan şəraitlə tanış olmuşdur.

Məlumat verilmişdir ki, 12 min 120 kvadratmetr ərazini əhatə edən mərkəz zirzəmi ilə birlikdə iki mərtəbədən ibarətdir. Zirzəmidə 304 yerlik yeraltı qaraj, yerüstü hissədə isə 192 yerlik avtomobil satışı yeri, 57 ehtiyat hissələri mağazası, kafe və texniki xidmət sahələri fəaliyyət göstərir. Fərdi istilik sistemi ilə təchiz olunan mağazaların hər birinin ümumi sahəsi 40 kvadratmetrdir. Burada istənilən modeldə avtomobillərin ehtiyat hissələrinin satışı təşkil olunacaqdır. Həmçinin mərkəzdə avtoyuma, elektrik və çilingər xidmətləri də göstəriləcəkdir.

Burada avtomobillərin maneəsiz hərəkəti və təhlükəsizliyi üçün bütün tədbirlər görülmüş, müasir havalandırma, işıqlandırma və yanğınsöndürmə sistemləri qurulmuş, giriş və çıxışlar avtomatlaşdırılmışdır. Mərkəzin ərazisində video-nəzarət sistemi yaradılmışdır.

Ali Məclisin Sədri satışa çıxarılan avtomobil ehtiyat hissələrinin standartların tələblərinə uyğunluğunun daim nəzarətdə saxlanılması, alqı-satqı zamanı avtomobillərin dövlət qeydiyyatı və sığorta olunması məqsədilə mərkəzdə səyyar xidmətin təşkili barədə müvafiq qurumlara tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

## Mədəniyyət işçilərinin növbəti zona müşavirəsi keçirilib



*Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə Naxçıvan Şəhər 2 nömrəli Uşaq Musiqi Məktəbində tədris işinin təşkili ilə bağlı zona müşavirəsi keçirilib.*

Naxçıvan şəhər, Babək və Şahbuz rayonlarında fəaliyyət göstərən mədəniyyət müəssisələri nümayəndələrinin iştirakı ilə keçirilən müşavirəni Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Natəvan Qədimova açıb.

Bildirilib ki, beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ikinci sessiyasında Mədəniyyət və Turizm Nazirliyinin qarşısında muxtar respublikada fəaliyyət göstərən uşaq musiqi məktəblərinin fəaliyyətinin gücləndirilməsi, ixtisaslı kadrların seçilməsi və düzgün yerləşdirilməsi, milli dəyərlərimizin təbliği, turizm sektorunun inkişafı istiqamətində səylərin artırılması kimi vəzifələr qoyulub. Bu gün həmin vəzifələrin tələb olunan səviyyədə yerinə yetirilməsi üçün hərtərəfli şərait yaradıldığını diqqətə çatdıran Natəvan Qədimova deyib ki, muxtar respublikada aparılan tikinti-quruculuq işləri məktəblərdən də yan keçməyib, uşaq musiqi məktəblərinin əksəriyyəti üçün yeni binalar tikilib, yaxud mövcud binalar yenidən qurulub. Həmin məktəblərdə 7200-dən çox şagird təhsil alır.

Muxtar respublikanın uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərində tədrisin səviyyəsinin yüksəldilməsi, məktəblərin maddi-texniki vəziyyətlərinin yaxşılaşdırılması, tədrisin mərkəzləşdirilməsi, məktəblərin tədris vəsaitləri ilə təmin edilməsi, istedadlı uşaq və gənclərin aşkara çıxarılması, onların yaradıcılıq imkanlarının inkişaf etdirilməsi sahəsində bir sıra işlər görülüb. Belə ki, 2015-2016-cı tədris ilində məktəblərə 3460 ədəd fərdi və qrup fənləri üzrə dərsə davamiyyət və müvəffəqiyyət jurnalı, fərdi vərəqə, akademik dinləyişlərin qeydiyyatı kitabı və ümumməktəb qiymət jurnalı verilib. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi tərəfindən göndərilən uşaq musiqi, incəsənət və rəssamlıq məktəbləri üçün nümunəvi əsasnamə, tədris planları və başqa əyani vəsaitlər məktəblər nəzərə alınaraq bölüşdürülüb və yerlərə göndərilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi tərəfindən verilən çap məhsulları da aidiyyəti üzrə məktəblərə paylanılıb.

Natəvan Qədimova məktəblərdə kargüzarlıq işlərinin mövcud təlimatlara uyğunlaşdırılması, bu sahədəki nöqsan və çatışmazlıqların aradan qaldırılması sahəsində görülən işlərdən danışaraq bildirib ki, 2015-ci ilin iyun ayında nazirlik tərəfindən məktəblərdə yoxlamalar aparılıb. Yoxlamaların nəticələri ümumiləşdirilib və nazirliyin kollegiya iclasında müzakirə olunub. Aşkar edilmiş nöqsan və çatışmazlıqların aradan qaldırılması, məktəb direktorlarının bu sahədə məlumatlarının artırılması məqsədilə seminarlar təşkil edilib. Bundan əlavə, məktəblərdə tədrisin səviyyəsinin yüksəldilməsi, şagirdlərə tədris olunan fənlərin mənimsədilməsi, onların yaradıcılıq imkanlarının inkişaf etdirilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi tərəfindən muxtar respublikanın uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəbləri üçün "Vahid tədris proqramları" adlı vəsait hazırlanaraq məktəblərə paylanılıb və işin bu əsasda qurulması təmin edilib. Lakin bütün bunlarla yanaşı, muxtar respublikanın uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərində aparılan yoxlamalar zamanı aşkar edilib ki, bəzi hallarda bir çox məktəblərdə kadrların yerləşdirilməsi işinə diqqət yetirilməyib, müəllimlərin bəzilərinə ixtisasına uyğun olmayan dərslər verilib. Xüsusən də kəndlərdə yerləşən məktəblərə kadr çatışmazlığı səbəbindən orta təhsilli müəllimlər yerləşdirilib ki, bu da həmin məktəblərdəki tədrisin səviyyəsinə mənfi mənada öz təsirini göstərir. Bu kimi neqativ halların qarşısını almaq məqsədilə məktəblərə kadrların yerləşdirilməsi nazirliyin nəzarətinə götürülüb və 2015-2016-cı tədris ilində kadrların yerləşdirilməsi məsələsi mərkəzləşdirilib, digər məqsədyönlü tədbirlər görülüb.

Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi Aparatının aparıcı məsləhətçisi Leyla Əlimərdanova çıxışında bildirib ki, hazırda Naxçıvan Şəhər, Babək və Şahbuz Rayon Mədəniyyət və Turizm şöbələrinin tabeliyində 14 uşaq musiqi məktəbi fəaliyyət göstərir. Bu gün əksər məktəblərdə ixtisasyönümlü fənlərin tədrisinə daha çox diqqət yetirilsə də, musiqi nəzəriyyəsi və musiqi ədəbiyyatı fənlərinin tədrisi arxa planda qalır. Daha mükəmməl kadrların yetişməsi üçün nəzəri fənlərin tədrisinin səviyyəsinin yüksəldilməsinə nail olunmalıdır.

Vurğulanıb ki, musiqi məktəblərində çalışan konsertmeysterlər ayrı-ayrı alətlərin, solist, xor və orkestr siniflərinin səciyyəvi xüsusiyyətlərini bilməli və şagirdlə məşğul olmaq üçün müəyyən metodiki biliyə malik olmalıdırlar. Bundan əlavə, milli dəyərlərimiz olan muğamların tədrisinə hər bir musiqi məktəbində ciddi diqqət yetirilməlidir.

Sonra Naxçıvan Şəhər, Babək və Şahbuz Rayon Mədəniyyət və Turizm şöbələrinin müdirləri İmamqulu Əhmədovun, Ceyhun Fərəcovun, Sabiq İmanovun çıxışları olub.

Müşavirəyə Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Natəvan Qədimova yekun vurub.

*Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətində işəgötürənlərin iştirakı ilə "Elektron xidmətlərin yenilik və müasir texnologiyalar əsasında səmərəli təşkili və təkmilləşdirilməsi" mövzusunda maarifləndirici tədbir keçirilib.*

## Dövlət Miqrasiya Xidmətində maarifləndirici tədbir



Tədbirdə xidmətin Miqrasiya proseslərinin təhlili və informasiya təminatı şöbəsinin rəisi Aysel Əliyeva çıxış edərək Dövlət Miqrasiya Xidməti tərəfindən elektron xidmətlərin göstərilməsinin səmərəli təşkili və mövcud sistemlər üzərində yeniliklərin tətbiqi, "Naxtel"in toplu SMS xidmətindən istifadənin təkmilləşdirilməsi haqda iştirakçılara məlumat verib.

Bildirilib ki, Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinə göstərilən diqqət və qayğının nəticəsində fəaliyyət göstərdikləri yeni inzibati binada müasir standartlara cavab verən texniki avadanlıqlar quraşdırılıb. Həmin avadanlıqlar elektron xidmətlərin göstərilməsi məqsədilə mərkəzi server sisteminə qoşularaq "Elektron hökumət portalı"na inteqrasiya olunub, əhaliyə, əcnəbi və vətəndaşlığı olmayan şəxslərə göstərilən xidmətlər müasirləşdirilib, bu sahədə elektron xidmətlərin tətbiqinə şərait yaradılıb. Demək olar ki, Dövlət Miqrasiya Xidməti üçün nəzərdə tutulmuş bütün xidmət növü üzrə sahələr avtomatlaşdırılıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili haqqında" 15 iyul 2011-ci il tarixli Fərmanının icrası ilə əlaqədar olaraq Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin 3 dildə internet səhifəsi yaradılıb. İnternet səhifəsinin "Elektron xidmət" bölməsinə daxil olmaqla hər bir fiziki və hüquqi şəxs Dövlət Miqrasiya Xidməti üçün konkret sahələr üzrə müəyyənləşmiş 9 xidmətdən istifadə edə bilər. Elektron xidmətlərin həyata keçirilməsinin inzibati prosedurunu müəyyənləşdirən texniki normativ-hüquqi aktlar (inzibati reqlamentlər) xidmətin rəsmi internet səhifəsində yerləşdirilib. İnzibati reqlamentlərdə, əsasən, xidmətin interaktiv və ya informativ olması, müraciətin icra müddəti, hüquqi əsasları, ödəniləcək dövlət rüsumları öz əksini tapır. Hər bir müraciət edən fiziki və hüquqi şəxs inzibati reqlamentlərlə tanış olaraq müvafiq xidmət növü üzrə Dövlət Miqrasiya Xidmətinə müraciət edə və hətta hər bir xidmət növü üzrə müəyyənləşmiş dövlət rüsumunu da onlayn həyata keçirə bilər.

Sonra xidmətin analitik təhlil və statistika üzrə baş inspektoru Qiyas Paşayev çıxış edərək iştirakçılara elektron xidmətlərin həyata keçirilməsinin inzibati prosedurunu müəyyənləşdirən texniki normativ-hüquqi aktlar barədə məlumat verib, hüquqi və fiziki şəxslər tərəfindən Dövlət Miqrasiya Xidmətinə müraciətlərlə bağlı "Elektron hökumət portalı"ndan istifadə yollarını praktik olaraq izah edib.

Sonda iştirakçıların maraqlandıran suallar cavablandırılıb.

**Xəbərlər şöbəsi**

*Ötən əsrin 80-ci illərinin sonu, 90-cı illərinin əvvəlləri iqtisadi tənəzzül, siyasi böhran, anarxiya, xaos, özbaşınalıq dövrü kimi tarixə düşüb. Naxçıvan şəhərini ayrı-ayrı məhəllələr üzrə nüfuz dairəsinə bölən insanlar peyda olmuşdu. Beləsləri vaxtaşırı olaraq şəhərin müxtəlif yerlərində onları tanımayan və ya tanıyıb itaət etməyənlərlə tanışlıq xarakterli "profilaktik tədbirlər" həyata keçirir, insanların həyatı üçün təhlükə yaradan şoular göstərirdilər. Dəmiryol vağzalına gedən yolda avtomobilləri saxladıb sürücüləri incidirdilər. Çörək zavoduna gedərkən dəfələrlə belə mənzərənin şahidi olmuşuq. Bu qoluzorluların əlindən qurtarandan sonra çörək almaq üçün saatlarla növbədə durmaq məcburiyyətində qalırdıq.*

# Yaradılmış ictimai-siyasi sabitlik, möhkəm nizam-intizam muxtar respublikamızı təhlükəsiz regiona çevirib



Qışın 35-40 dərəcə şaxtasında belə, bu vəziyyətə dözürdük. Ta ki 3 çörəyi gözlərini əlimizə və qapıya dikən körpə uşaqlara çatdıraq. Uzun-uzadı növbədə dayanmağın əzab-əziyyəti bir tərəfə, burada yaranan xoşagəlməz hadisələr də insanları mənən sarsıdırdı. Qolları və sinəsi əcaib şəkillərlə bəzədilmiş "xüsusi imtiyazlı şəxslər" növbəsiz-filansız zavoda girir, istədikləri qədər çörək alırdılar. Heç yadımdan çıxmır, onların bu hərəkətlərinə etiraz edən bir gənci vurub sərdilər yerə. Axşamdan yağan yağışın yaratdığı gölməçədə təpiklədilər. Gənc isə təpik zərbələrinin ağrısına dözür, aldığı 3 çörəyi qucağında bərk-bərk sıxmışdı ki, palçığa batmasın. Heç olmasa həmin günü ailəsi naümid qalmasın. Bəlkə də deyim ki, insanları 3 çörəklə çəkilən imtahandan daha çox bu haqsızlıq, özbaşınalıq əzirdi.

Üç çörəyini tapıb alan heç olmasa həmin gün üçün təsəlli tapırdı. Sabah sübh tezdən qalxıb çörək növbəsinə tələsən bina sakinləri yeni sürprizlərlə qarşılaşırdı. Evində daimi suyu olması üçün hər bir ailə zirzəmidə qoyduğu çənə su nasosu birləşdirmişdi ki, elektrik enerjisi olanda evdəki çənə su doldura bilsin. 20 millimetrlik armaturla qaynaq elətdirib hazırladığımız qəfəsi səliqəlicə kəsib su nasosunu aparırdılar. Binanın həyətində dayanan avtomobillər az olduğundan sahibləri daha çox əziyyət çəkirdilər. Xüsusilə Nazim müəllimin "Jiquli"si daha çox təqibə məruz qalır, 2-3 aydan bir təkərlərin üstündə durmaq əvəzinə, Bakı kubiklərinin üstündə dayanır, maqnitofonu isə başqa maşınlarda oxuyurdu. İnsafən onu da deyim ki, ehtiyat hissələrinə dəyib toxunmurdular. Çünki maşın əlvərişsiz yerdə dayandığından, yəni binanın həyətinə min göz baxır, – deyib tezbazar "əməliyyat" aparırdılar. Vaxt alan ehtiyat hissələrinin "əməliyyatları" isə dəmir qarajlarda aparılırdı.

Qonşu Valeh arxayın olur ki, "Jiquli"si dəmir qarajdadır, qapısında da bir kiloluq qıfıl. Deməli olar ki, hər gün qıfıla nəzarət edir. Baxır ki, hər şey qaydasındadır. Yəni qıfıla toxunulmayıb. Benzin qıtlığı üzündən maşını işlətməyən Valeh bir müddət sonra dəmir qarajin qapısını açanda görür ki, maşının biri qalıb. Oğrular bağçadan tunel qazıb giriblər qaraja. Bu hadisə bütün qonşulara dərs oldu. Dəmir qarajların döşəməsini 20 millimetrlik armaturla qaynaq etdirib beton tökdük. Amma gördüyümüz təhlükəsizlik tədbirlərinə baxmayaraq, hər gün qarajı açıb maşına baş çəkmək əsas şərt idi. Təkcə qaraj deyil, evini təmir etdirən hər kəs, ilk növbədə, giriş qapısını dəmirdən, özü də ikiqat dəmirdən yığdırıb 2-3 kilid saldırırdı. Bu, dövrün tələbi idi. Əks- təqdirdə, sən də oğurluğun növbəti qurbanı olacaqdın.

Zaman keçdi. İnsanlara doğru yol göstərildi. Cinayət hadisəsini doğuran səbəblər aradan qaldırıldı, əhalinin məşğulluğu təmin edildi. Hər kəs gücü çatdığı, bacardığı işin, peşənin dalınca getdi. Cinayətə meyilli insanlar tənbeh edildi. Bəli, həbsxanaya salınmadı, tənbeh edildi. Hüquqi-maarifləndirmə işləri genişləndirildi. Nəticədə, insanlar azadlıqdan məhrum olmaqdan, üzləşəcəyi əzab-əziyyətdən, onların ailə üzvləri başsız qalmaqdan, cəmiyyətə yük olmaqdan, ictimaiyyət isə həmin narahatçılıqdan xilas oldu. Digər sahələrdə olduğu kimi, cinayətkarlığa qarşı mübarizədə tətbiq olunan Naxçıvan modeli, yəni cinayət baş verəndən sonra yox, cinayət baş verməzdən əvvəl həyata keçirilən profilaktik tədbirlər öz bəhrəsini verdi. 1994-cü ildə 774 cinayət hadisəsi qeydə alınan muxtar respublikamızda bu göstərici ötən il 19-a endirildi. Onu da qeyd edək ki, 1993-cü ildə qəsdən adamöldürmə ilə bağlı 18, qəsdən adamöldürməyə cəhdlə bağlı 4, qəsdən sağlamlığa zərər vurmaqla bağlı 20 cinayət hadisəsi qeydə alınmışdısa, 2015-ci ildə bu tip cinayətlərdən yalnız bir fakt qeydə alınıb. 1992-ci ildə oğurluqla bağlı 301 cinayət işi başlanmışdısa, ötən il bu qəbildən cəmi 6 hadisə baş verib. 1994-cü ildə narkotik maddələrlə bağlı 104 hadisə qeydə alınmışdısa, 2015-ci ildə cəmi 5 fakt aşkar edilib.

Oxunuşuna və yazılışına bir neçə dəqiqəlik zaman sərf etdiyimiz bu bir neçə cümləlik statistik göstəricinin reallaşması üçün nə az, nə çox, 20 ildən artıq ağır zəhmət tələb edən gərgin əmək sərf olunub. Bir vaxtlar səksəkəli günlərini yaşayan Naxçıvan indi təhlükəsiz şəhərə, cinayətsiz regiona çevrilib. Hərtərəfli biliyə malik gənc nəslin yetişdirilməsinə, onların asudə vaxtlarının səmərəli təşkilinə hər cür şərait yaradılıb, istifadəyə verilən müasir məktəblər, gənclik mərkəzləri, idman zalları, idman kompleksləri öz bəhrəsini verib. 1993-cü ildə yetkinlik yaşına çatmayanlar tərəfindən 40 cinayət hadisəsi törədilən muxtar respublikamızda son illər bu qəbildən heç bir cinayət hadisəsi qeydə alınmayıb. Küçələrdə veyil-veyil gəzən, yetənə yetən, yetməyənə də daş atan, hüquq-mühafizə orqanları əməkdaşlarının dili ilə desək, xuliqanlıq edən yetkinlik yaşına çatmayan uşaqlar, yeniyetmələr indi 500-700 bal toplayan məzunlar olub, sorağı ölkənin və dünyanın ali təhsil ocaqlarından gələn, beynəlxalq yarışlarda bayrağımızı dalğalandıran, himnimizi səsləndirən qürurverici gəncliyə çevrilib. Amma keçmişini unudanın gələcəyi olmaz, – deyiblər. Biz də zaman-zaman keçmişə müraciət edir, bu gün əmin-amanlıq, sabitlik şəraitində yaşayan gənc nəslə o dövrün çətinliklərini, bugünkü əmin-amanlığa, sabitliyə gedən yolun heç də asan olmadığını çatdırmağa çalışırıq. Çalışırıq ona görə ki, dövlətin, millətin gələcəyi olan gənclik o dövrü yenidən yaşamasın, reallıqları yaşamağı, yaşatmağı bacaran əsl vətəndaş olsun. Elə buradaca bir xarici iş adamı ilə söhbətimizdə dediyi maraqlı bir hadisəni də oxucularımıza çatdırmaq istəyirəm:

– Yeni gəlmişdim Naxçıvana. Kirayə qaldığımız mənzildə iki nəfərlə yaşayırdıq. İşimlə əlaqədar mən evdən sübh tezdən çıxmalı oldum. Onu oyadıb "Çıxarkən qapını bağlamağı unutma", – dedim. Axşam evə dönərkən, baxdım ki, qapı açıqdır.

– Vay, evə oğru girib, – deyə fikirləşdim. Qapını açdım, baxdım ki, ayaqqabı izi yoxdu. Adətən, oğrular çağırılmamış qonaq olduğundan evi ayaqqabı ilə dolanıb axtarış aparırlar. Təbii ki, əvvəlcə pulu qoyduğum yerə baxdım. Yerində idi. Hər şey necə səliqə ilə düzülmüşdüsə, elə idi. Bu vaxt iş yoldaşım da gəldi. Etiraf etdi ki, qapını bağlamağı unudub. Amma o da həyəcanlı idi.

– Bəs sən niyə həyəcanlısan? Özün deyirsən ki, qapını bağlamağı unutmusan. Bu oğru işi deyil, – deyə soruşdum.

– Yox, mən inana bilmirəm, necə olur ki, qapı açıq ola-ola evə oğru girmir. Heyrət, bu məmləkətə.

Bəli, dostlarımızın dediyi kimi heyrət ediləcək, qibtə olunacaq bir məmləkətdə yaşamaqdan qürur duyur, iftixar hissi keçiririk. Naxçıvan bütün bu uğurlara burada yaradılmış ictimai-siyasi sabitlik, möhkəm nizam-intizam sayəsində nail olub. Yalnız nizam-intizam sabitliyi saxlaya, təhlükəsizliyi qoruya bilərdi. Odur ki, bu məsələyə muxtar respublikamızda ciddi diqqət yetirilib, yaradılmış nizam-intizam sayəsində hər kəs öz işi ilə məşğul olmağa, muxtar respublikanın inkişafı üçün çalışmağa başlayıb. Nəticədə, Naxçıvan təhlükəsiz bir regiona çevrilib. 2016-cı ilin Naxçıvanda "Nizam-intizamın daha da möhkəmləndirilməsi ili" elan olunması bu uğurların sayını daha da artıracaq, yaxın gələcəkdə Naxçıvanda heç bir cinayət hadisəsi də baş verməyəcək.

*İstehsal müəssisələri*

# Naxçıvanda daha iki məhsula olan tələbat yerli istehsal hesabına ödənilir

*Daxili bazarın tələbatına uyğun keyfiyyətli məhsullar istehsal edən müəssisələrdən biri də Naxçıvan şəhərində fəaliyyət göstərən "Pambıq" Uşaq Bezi Fabrikidir. Özəl bölməyə, sahibkarlıq fəaliyyətinə göstərilən dövlət qayğısından bu müəssisə də bəhrələnib. Xammal və hazır məhsulların ağırtonnajlı yük avtomobilləri ilə daşınması üçün daha əlverişli yerdə – Naxçıvan dairəvi avtomobil yolunun kənarında müəssisə üçün ayrılmış əraziyə elektrik, qaz, su və kanalizasiya xətləri çəkilib. Təcrübəli mütəxəssislərin cəlb olunduğu obyektdə inşaat işləri vaxtında və keyfiyyətlə aparılıb, 2 istehsal sahəsi, xammal və hazır məhsulların saxlanılması üçün ayrı-ayrı bölmələr yaradılıb.*

Layihəyə uyğun olaraq, tibbi spirtin qablaşdırılması və uşaq bezi istehsalı sahələrində İran İslam və Çin Xalq respublikalarından alınmış, istehsal gücü saatda 1000 ədəd şərti butulka tibbi spirt, dəqiqədə 350 ədəd uşaq bezi olan və kompüterlə idarəetmə mərkəzi ilə təmin edilən müasir texnoloji avadanlıqlar quraşdırılıb, istehsal prosesi avtomatlaşdırılıb. Müəssisədə istehsal prosesi konveyer üsulu ilə təşkil olunub, keyfiyyətli məhsul istehsalı üçün əlverişli şərait yaradılıb. Həmçinin müəssisədə mərkəzləşdirilmiş nəzarət sistemi qurulub ki, bu da istehsal prosesi zamanı yaranan nasazlıqların vaxtında aradan qaldırılmasına imkan verir.

Türkiyə, Almaniya, Koreya, İran və Pakistan respublikalarında fəaliyyət göstərən bu sahə üzrə qabaqcıl təcrübəyə malik ayrı-ayrı şirkətlərdən xammal idxalına başlanılıb. Müəssisənin yaradılması və müasir texnoloji avadanlıqların alınıb quraşdırılmasına, ümumilikdə, 1 milyon 820 min manat vəsait sərf olunub ki, bunun da 700 min manatı Sahibkarlığa Kömək Fondundan, 1 milyon 120 min manatı isə müəssisənin daxili imkanları hesabına ödənilib.

İllik istehsal gücü 2 milyon 496 min ədəd şərti butulka tibbi spirt və 52 milyon 416 min ədəd uşaq bezi olan bu müəssisə muxtar respublikamızda yeganə müəssisədir. İlkin hesablamalara görə, muxtar respublikamızın tibbi spirtə olan illik tələbatı 360 min ədəd şərti butulka, uşaq bezinə olan tələbatı isə 22 milyon ədəddir. Göründüyü kimi, yeni müəssisədə istehsal olunan məhsullar daxili bazarın tələbatını tamamilə ödəyir, ixrac imkanları yaradır.

Müəssisədə istehsal edilən uşaq bezi və tibbi spirtin yerli məhsul olaraq tanıdılması və daxili bazarın tələbatının öyrənilməsi məqsədilə tədbirlər həyata keçirilib. Tibbi spirt 100 qramlıq şüşə taralarda, uşaq bezi isə 6 ölçüdə olmaqla müxtəliftutumlu, nəfis tərtibatla bəzədilmiş paketlərdə Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsində qeydə alınmış "Pambıq" əmtəə nişanı ilə satışa çıxarılır. Əvvəllər eyniadlı məhsullar muxtar respublikamıza xarici ölkələrdən idxal olunub əlavə daşınma xərci çəkilirdisə, bu müəssisənin fəaliyyətə başlaması ilə həmin problemlər aradan qaldırılıb, istehlakçıların daha münasib qiymətə keyfiyyətli yerli məhsullarla təmin olunmasına əlverişli şərait yaradılıb.





Yeni istehsal müəssisəsinin yaradılması daxili bazarı keyfiyyətli yerli məhsullarla təmin etməklə yanaşı, əhalinin məşğulluğunda da mühüm rol oynayıb. Onu da qeyd edək ki, müasir texnoloji avadanlıqlardan səmərəli istifadə etməyi bacaran ixtisaslı mütəxəssislərin hazırlanması da diqqət mərkəzində saxlanılıb. Bu da imkan verir ki, istehsal prosesi yerli mütəxəssislər tərəfindən həyata keçirilsin.

Ayrı-ayrı əczaxanalarda satışa çıxarılan bu yerli məhsullara olan münasibəti öyrəndik. Həkim-terapevt Vəliqulu Həsənov dedi: – Əvvəllər xaricdən idxal olunan tibbi spirtin və körpələrin istifadə etdiyi uşaq bezinin hansı şəraitdə istehsal edildiyini və bu məhsulların keyfiyyətinə necə nəzarət olunduğunu bilmir, istehlakçıların hər hansı bir dəri xəstəliyinə tutulacağından narahatçılıq keçirirdik. Amma Naxçıvan şəhərində tibbi spirtin qablaşdırılması və Uşaq Bezi Fabrikinin fəaliyyətə başlaması ilə bu narahatçılığa son qoyuldu.

Naxçıvan şəhər sakini Nərminə Babayeva: – Körpə uşaqlarım var. Naxçıvanda istehsal edilən uşaq bezinin daimi alıcısıyam. Xaricdə istehsal olunan eyniadlı məhsullardan həm ucuz, həm də keyfiyyətlidir. Bu yerli məhsullar ailə büdcəmizə qənaət etməyə imkan verir.

Naxçıvan şəhər sakini Mahirə Rzayeva: – Yerli istehsala önəm veririk. Çünki həmin məhsulların keyfiyyətinə ciddi nəzarət olunduğuna inanırıq.

*Səhifəni hazırladı:* Kərəm HƏSƏNOV

***Hələ 45-50 il bundan əvvəl evimizdə rəhmətlik nənəmin toxuduğu xalça indi də durur. Çeşniləri ilə gözoxşayan, keyfiyyətini zərrə qədər də itirməyən həmin xalça heç bir təhsil görməyən bir Azərbaycan qadınının təfəkkürünün məhsuludur. Və düşüncəmdə özümü haqlı sayıram ki, belə təfəkkür hər bir Azərbaycan qadınında olub. Xanımxatın nənələrimiz, ana və bacılarımız öz istedad və bacarıqlarını bu milli sənətin inkişafında yüksək səviyyədə göstəriblər. Onların toxuduqları xalçalar tarixən dünyanın müxtəlif ölkələrində təşkil olunan sərgilərdə nümayiş etdirilib, xalqımıza böyük şöhrət gətirib. İstərdim ki, qədim diyarımızda xalçaçılığın tarixinə qısa səyahət edək.***

*Xalq yaradıcılığı*

# Ənənəni qoruyaq, evdə xalça toxuyaq

Aparılan arxeoloji tədqiqatlar nəticəsində xalça toxunuşunda istifadə olunan ibtidai gil cəhrələr və sümükdən hazırlanmış iy ucları kimi materialların əldə edilməsi Naxçıvanın Azərbaycanın ən qədim toxuculuq mərkəzlərindən biri olduğunu sübuta yetirir. Orta əsr ərəb müəllifləri də Naxçıvanda xalçaçılığın geniş vüsət alması və bu ərazidə toxunan xalçaların şöhrət qazanması barədə öz əlyazmalarında dəyərli məlumatlar veriblər.

Azərbaycan xalça sənətini öz ənənəvi naxışları və elementləri, özünəməxsus şux rəng çalarları ilə zənginləşdirən Naxçıvan xalçaları bu gün də öz dəyərini saxlamaqdadır. Qeyd edək ki, xalça sənətinin Naxçıvanda geniş yayılmasına xalqımızın məişət və estetik tələbatı rəvac verib. Bu ərazidə istehsal edilən iriölçülü, qalın toxunuşa malik xovlu və keçə, palaz, cecim, kilim, şəddə, zili kimi xovsuz xalçalardan evlərdə döşəmələrin örtülməsində, otaqların isidilməsində və bəzədilməsində istifadə edilib.

Naxçıvan xalçaçılıq məktəbi özünəməxsus inkişaf mərhələsi keçib. Bu günümüzə qədər qorunub saxlanılan xalça nümunələri belə deməyə əsas verir ki, bu qədim diyarda xalça toxunuşunda daha çox butalardan, rəmzi çeşnilərdən istifadə edilib. Şaquli istiqamətli zolaqlarla bəzədilmiş xovsuz xalçaların əsas istehsal mərkəzi tarixən Ordubad olub. Əsasən, ipək liflərdən toxunan bu xalçalar ağ, yaşıl, qırmızı, sarı, mavi və sair rəngli zolaqların növbələşməsi ilə bəzədilib, zəriflik baxımından qumaş təsəvvürü yaradıb. Muxtar respublikada toxunan xalça nümunələri həm də mürəkkəb dolama texnikasına, rənginə, bədii xüsusiyyətlərinə görə digər xalçaçılıq məktəblərinin məhsullarından seçilib. Bu barədə düşünərkən qürur hissi keçirməmək mümkün deyil. Belə qiymətli sərvətlərimiz həm də milli dəyərlərimizdir.

Bir məsələni də xüsusi vurğulamağa ehtiyac duyuram. Yaşlı adamlardan eşitdiyimə görə, Naxçıvanda tarixən xalça toxunuşunda kollektiv əməyindən istifadə edilib. Kollektiv isə, adətən, bir tayfanın üzvlərindən ibarət olub. Danışırlar ki, hər tayfanın özünəməxsus rəmzlərindən bəzi xalçalarda istifadə edilib. Ancaq həmin xalçalar nə satışa çıxarılıb, nə də evdə ayaq altına salınıb. Belə xalçalar yalnız divarlardan asılıb. Fikrimizcə, geniş izahata ehtiyac yoxdur. Böyük dövlətçilik məktəbi yaratmış Naxçıvanda rəmzlərə belə qiymət vermək təbiidir.

Xalçaçılıq sənətinin inkişaf etdirilməsi istiqamətində muxtar respublikamızda məqsədyönlü tədbirlər həyata keçirilir. Belə ki, Naxçıvan xalçaçılıq məktəbinin bərpa edilməsi, tədqiqi və təbliği üçün 1998-ci ildə Naxçıvan Dövlət Xalça Muzeyi yaradılıb. Xalçaçılığın elmi əsaslarla inkişafını diqqətdə saxlayan, evlərdə olan xalça nümunələrinin muzeyə təhvil verilməsi istiqamətində xeyli iş görən muzeyin iş şəraitinin yaxşılaşdırılması məqsədilə 2010-cu ildə bu mədəniyyət müəssisəsi yeni bina ilə təmin olunub.



2013-cü ildə Naxçıvan Dövlət Xalça Muzeyi yenidən qurulub, "Naxçıvan xalçaçıları" kitabının, "Azərbaycan xalçaları: Naxçıvan qrupu" jurnalının, "Naxçıvan xalçaları" sənədli filminin və muzeyin ***www.xalca.nakhchivan.az*** saytının təqdimat mərasimi keçirilib. Bu, milli dəyərlərimizin daşıyıcısı olan xalçaçılığın gələcəyinə ümidləri daha da artırıb.

Həmin il dekabr ayının 18-də qəbul edilən "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nda əmək bazarının tələbinə müvafiq olaraq, işaxtaranların peşə hazırlığının təşkili üzrə həyata keçirilməsi nəzərdə tutulan işlər sırasında milli və xalq tətbiqi sənət növlərinin öyrənilməsi, milli ənənələrimizin yaşadılması istiqamətində tədbirlər də var idi. 2014-cü ildən başlayaraq Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən "Ənənəni qoruyaq, evdə xalça toxuyaq" adlı sosial əhəmiyyətli haqqıödənilən ictimai işin təşkil edilməsində məqsəd odur ki, muxtar respublikada xalça istehsalı sahəsi ilə məşğul olan sahibkarlar yetişsin, xalçaçılıq davam etdirilsin. Bu tədbir eyni zamanda işaxtaran vətəndaşların məşğulluğunun təmin edilməsi, onların maddi rifah halının yaxşılaşdırılması istiqamətində atılan növbəti addım kimi dəyərləndirilir. Nazirlik tərəfindən "Ənənəni qoruyaq, evdə xalça toxuyaq" adlı sosial əhəmiyyətli tədbiri həyata keçirmək üçün muxtar respublikanın müxtəlif bölgələrində xalçaçılığa maraq göstərən ailələrə 14 hana verilib. Bu günədək 36 xalça toxunub.

Həmin sosial əhəmiyyətli layihə 2016-cı ildə də davam etdirilir. Bu günlərdə xalçaçılıqla məşğul olanların bir neçəsi ilə iş başında görüşdük. Şərur rayonunun Düdəngə kəndində yaşayan Dilbər Baxşəliyeva Naxçıvan Regional Peşə Tədris Mərkəzini bitirib. Hazırda Şərur Texniki-Peşə və Sürücülük Məktəbində xalçaçılıq qrupunun müəllimidir.

O, söhbət zamanı bildirdi ki, illər əvvəl işlədilən hanalar primitiv üsullarla düzəldilirdi. Çox ağır olurdu. Son vaxtlar xalçaçılığa marağın azalmasının bir səbəbi də bununla bağlı idi. Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən onlara verilən hananı asanlıqla bir evdən digərinə aparmaq, qısa bir vaxtda söküb yenidən yığmaq mümkündür.

Dilbər xanım onu da bildirdi ki, hana ilə yanaşı, həm də hər xalçanın toxunması üçün onlara 1 kiloqram əriş, yarım kiloqram arğac, 2 kiloqram yun ip verilib. Digər avadanlıqlarla da təchiz olunublar. Hazırda toxuduğu xalçanın eni 80, uzunluğu isə 120 santimetrdir. O, bu günədək 2 xalça toxuyub təhvil verib. Hər xalçaya görə 200 manat əməkhaqqı alıb. Toxuduğu xalçanı Novruz bayramınadək təhvil verməyi düşünür.

Düdəngə kəndində yaşayan Xəyalə Əliyarova da muxtar respublikada xalçaçılıq sənətinin inkişafına, insanların məşğulluğuna göstərilən qayğıya görə minnətdarlığını bildirdi. Dedi ki, iki ilə yaxındır, xalçaçılıqla məşğul olur. Xalça toxumaq üçün ona qayçı, kirkir, bıçaq, əriş, arğac, yun iplər, hətta istifadə etmək üçün çeşnilər də verilib.

Rayonun Tənənəm kəndində yaşayan Güllər Salmanova da "Ənənəni qoruyaq, evdə xalça toxuyaq" adlı sosial əhəmiyyətli haqqıödənilən ictimai işin təşkilindən razılıqla danışdı. Bildirdi ki, bu, onların ailəsinin maddi vəziyyətinə xeyli təsir edib.

Şahbuz rayonunun Ağbulaq, Kolanı və Aşağı Qışlaq kəndlərində tarixən xalça toxunuşu ilə məşğul olublar. Yenidən bu sahəyə dövlət səviyyəsində qayıdış rayon sakinlərinin ürəyincədir. Kolanı kəndində yaşayan Bəsti Əhmədova bu sənəti anası Sünsənbər xanımdan, bacısı Laləzardan öyrənib. Deyir ki, bir il ərzində 4 xalça toxuyub təhvil vermişəm. Xalça toxunuşunda qoçbuynuzu, şahmat, qaynaq ilmələrindən istifadə edirəm.

– Ailənizdə bu sənəti davam etdirənlər yetişirmi? – sualımıza təbəssümlə cavab verir:

– Qızlarımı öyrətmişəm. Hazırda yaxın qohumum, ikinci sinif şagirdi Gülgəzə də bu sənətin sirlərini öyrədirəm.

Rayonun Aşağı Qışlaq kəndində yaşayan Natəvan Zeyniyeva evlərində yerə döşənmiş, divardan asılmış xalça və kilimlərin bir neçəsinin anası və bacısı tərəfindən toxunduğunu dilə gətirir. Bu gün bu sənəti o da davam etdirir. Bacısı Gülsümdən xalçaçılığın sirlərini öyrəndiyini deyən Natəvan indiyə kimi "Möminə xatın", "Naxçıvan", "Haçadağ" adında xalça toxuyub təhvil verib. O həm də heybə, kilim toxumağı bacarır. Natəvan da dövlətimizin onlara yaratdığı bu şəraitdən razılığın bildirdi.

*Hörmətli oxucular, məlumat üçün bildirək ki, regionumuzun digər bölgələrində də xalçaçılığa maraq göstərənlərə bu sahə ilə məşğul olmaq üçün şərait yaradılıb. Növbəti nömrələrimizdə onlar haqqında da sizə məlumat verəcəyik.*

**Muxtar MƏMMƏDOV**

# Babək Rayon Xalq Teatrı Şərurda qastrol səfərində olub

***Babək Rayon Xalq Teatrı yazıçı-dramaturq Hüseynbala Mirələmovun "Xəcalət" tamaşası ilə şərurluların qonağı olmuşdur. Şərur şəhərindəki Mədəniyyət Sarayında nümayiş etdirilən tamaşa rayon ictimaiyyəti tərəfindən alqışlarla qarşılanmışdır.***



Qeyd edək ki, Babək Rayon Xalq Teatrı 2009-cu ildə yaradılmışdır. Teatrın bu illərdə hazırladığı "Yollara iz düşür", "Ezop", "Solğun çiçəklər", "Şeyx Rəhmətullah", "Məhəbbət nişanəsi", "Ana", "İkinci səs", "Yağışdan çıxdıq, yağmura düşdük" və başqa tamaşalar maraqla qarşılanmışdır. Teatr keçən il muxtar respublikamızda keçirilən xalq teatrlarının festivalında "Yağışdan çıxdıq, yağmura düşdük" tamaşası ilə festivalın qalibi olmuşdur.

Babək Rayon Xalq Teatrının hazırladığı son əsərlərdən olan "Xəcalət" tamaşası Qarabağ hadisələri ilə bağlı olduğu üçün bu günümüzlə səsləşir və maraq doğurur. Tamaşada uşaqlıqları bir yerdə keçmiş Murad və Vətənin Qarabağ müharibəsində iştirakından sonra tale yollarının ayrılmasından bəhs edilir. Atəşkəs müqaviləsi imzalandıqdan sonra onların düşüncə tərzi tamaşaçı üçün maraq doğurur. Vətən (İsmayıl Qurbanov) yenə də işğal olunmuş torpaqlarımızın həsrətini çəkir.

Muradı (Akif Əsədov) Qarabağ müharibəsindən qayıtdıqdan sonra əldə etdiyi var-dövlət dəyişdirib. İndi onu öz sərmayəsini artırmaq düşündürür.

Tamaşada Vətən və Muradın simasında iki fərqli dünyagörüşə malik insanın xarakterik və psixoloji anları ön plana çəkilmişdir.

"Xəcalət" tamaşasındakı Fərqanə (Svetlana Babayeva), Gültac (Səbinə Corayeva), Kürən (Firdovsi Səfərov), Kərim (Kənan Feyzullayev) müxtəlif taleli xarakterik insan obraz və personajlarını canlandırırlar.

"Xəcalət" tamaşasının quruluşçu rejissoru Yusif Əliyev, tərtibatçı rəssamı Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Əli Səfərli, musiqi tərtibatçısı Cabir Məmmədovdur.

# *"Nabat"* filmi nümayiş etdirilib



***Naxçıvan şəhərindəki "Gənclik" Mərkəzində Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə Azərbaycan kinematoqrafçılarının çəkdiyi "Nabat" filmi nümayiş etdirilmişdir.***

Filmin nümayişindən əvvəl Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin əməkdaşı Əli Rzayev çıxış edərək bildirmişdir ki, nazirliyin təşkilatçılığı ilə hər həftənin cümə günü "Azərbaycan kinosu günü" kimi Azərbaycan filmləri göstəriləcəkdir. Nazirliyin həyata keçirdiyi bu layihə əsasında kinosevərlər həm uzun illər bundan əvvəl, həm də son illərdə çəkilmiş filmlərlə tanış ola biləcəklər. Bu gün göstərilən "Nabat" filmi son illərdə çəkilmişdir. Film dünyanın onlarla ölkəsində nümayiş etdirilmiş, 22 festivalda göstərilmişdir.

"Nabat" filmi İtaliyanın mötəbər Venesiya festivalının (2014) mükafatını qazanmışdır.

Film xalqımızın ən ağrılı problemi olan Qarabağ mövzusundadır. Filmin yaradıcıları Elçin Musaoğlu, Əbdülrəhim Bəşərat, Elxan Nəbiyev və başqaları təsirli ekran əsəri yaratmağa nail olmuşlar.

Sonra "Nabat" filmi nümayiş etdirilmişdir.

**Əli RZAYEV**

# Elan

Muxtar respublika ərazisində kartof əkinini həyata keçirəcək istehsalçıların nəzərinə çatdırılır ki, "Naxçıvan Meyvə-Tərəvəz Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən Türkiyə Respublikası mənşəli toxumluq kartofun satışı həyata keçirilir. Toxumluq kartof növləri laboratoriya ekspertizasından keçirilmiş və nəticədə muxtar respublikanın iqlim şəraitinə uyğun olduğu müəyyənləşdirilmişdir. Toxumluq kartof sortlarının 1,0 kiloqramının satış qiyməti aşağıdakı kimidir:

- *"Qranula" toxumluq kartofu – 50 qəpik*
- *"Santa" toxumluq kartofu – 60 qəpik*

İstehsalçıların nəzərinə çatdırılır ki, toxumluq kartofun ünvana çatdırılması "Naxçıvan Meyvə-Tərəvəz Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən həyata keçirilir.

***Ünvan: "Naxçıvan Meyvə-Tərəvəz Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyəti, Naxçıvan şəhəri, Ə.Qəmküsar küçəsi.***
***Əlaqə telefonları: (050) 516-45-61, (036) 554-05-57***

# Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi

## *2016-cı il üçün kotirovka elan edir*

*1. Dəftərxana və təsərrüfat mallarının satın alınması.*
*2. Yuyucu maddələrin satın alınması.*

Kotirovka 15 fevral 2016-cı il tarixədək qəbul edilir. Sorğuda aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, texniki-iqtisadi və maliyyə imkanlarına malik olması göstəricilərinə üstünlük veriləcəkdir. Kotirovka zərfi 16 fevral 2016-cı il tarixdə, saat $11^{00}$-də Naxçıvan şəhəri, "Azərbaycan" küçəsi, 29-da açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Əlaqələndirici şəxs: Ramil Məmmədxanov***
***Telefon: 545-66-26***
***Ünvan: Naxçıvan şəhəri, "Azərbaycan" küçəsi, 29***

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 130